# OXÇUÇAYDA MOLİBDENİN QATILIĞININ DƏYİŞMƏ DİNAMİKASI

**Hacıyeva S.R.[1], Əliyeva T.İ.[1], Əvəzova M.Ə.[2]**

*[1]Bakı Dövlət Universiteti*
*[2]Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi*
*tarana_chem@mail.ru*

Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas rayonlardan biridir. Azərbaycanın yerli su ehtiyatlarının təxminən 25%-i bu bölgədə formalaşır. Ərazidən həm daxili, həm də transsərhəd keçən çaylar axır. Qarabağ bölgəsində səth sularının monitorinqi 70-ci illərin axırlarından başlayaraq 1989-cu ilə qədər Monitorinq Proqramına uyğun olaraq həyata keçirilmişdir. Ərazidən axan Oxçuçay, Bəsitçay, Həkəriçay və Bərgüşad kimi sürətli dağ çayları keçir. Süsən dağı silsiləsindən başlayaraq transsərhəd keçən bu çaylarda suyun keyfiyyətinin müəyyənləşdirilməsi məqsədilə mütəmadi monitorinqlər həyata keçirilmişdir. Belə ki, çoxillik məlumatlara əsasən demək olar ki, işğala qədər ki dövrdə ərazidən axan çaylarda ağır metallar, biogen maddələrlə və fenollarla çirklənmə müşahidə edilmişdir.

2021-ci ilin 8 ayı ərzində işğaldan azad olunmuş ərazilərdən axan çaylarda aparılmış monitorinq nəticələrinə əsasən demək olar, Qarabağ bölgəsində transsərhəd keçən çaylar Oxçuçay, Bərgüşad, Bəsitçay çayları digər çaylarla müqayisədə yüksək çirklənməyə məruz qalır. Belə ki, çaylardan götürülmüş su nümunələrində aparılmış analiz nəticələrinə əsasən ən çox çirklənməyə məruz qalan Oxçuçay olduğu müəyən edilmişdir. İşğaldan azad edildikdən sonra Zəngilan rayonu ərazisində çayda çirklənmə səviyyəsinə nəzarət məqsədilə mütəmadi olaraq monitorinqlər aparılmış, su nümunələri götürülmüşdür. Analiz nəticələrinə əsasən Ermənistan respublikası ilə sərhəd nöqtədən götürülmüş nümunələrdə ağır metalların və biogen maddələrin konsentrasiyası normadan daha Qeyd etmək lazımdır ki, çayın çirklənməsinə səbəb Ermənistan respublikası ərazisində fəaliyyət göstərən mis- molibden kombinatından atılan tullantı sularıdır. Tullantı suları təmizlənmədən bir başa çaya axıdılır, bu da çayın ağır metallarla çirklənməsinə gətib çıxarır. Çayın ağır metallarla yüksək səviyyədə çirklənməsi çayın ekosisteminin pozulmasına və orada yaşayan bioresursların məhvinə səbəb olur. Belə hadisə cari ilin mart ayının əvvəllərində müşahidə edilmişdir, belə ki, çaya böyük həcmdə tullantı sularının atılması nəticəsində çayda balıqların kütləvi məhvi baş vermişdir.

2021-ci ilin fevral ayında aparılmış monitorinq nəticələrinə əsasən Oxçuçaydan və çayın yuxarı axınında, Cahangirbəyli kəndi ərazisindən götürülmüş su nümunələrində manqan ionunun (Mn) miqdarı 2.0 dəfə, çayın orta axınında 1.4 dəfə, Oxçuçayda 1.9 dəfə, Bürüklü və Tağlı kəndi ərazisində isə 3.0 dəfə yol verilən qatılıq həddindən çox olmuşdur.





**Oxçuçayda molibdenin qatılığının dəyişmə dinamikası (Yanvar-avqust ayları)**

